*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (6) 2024*

***Derleme Makalesi | Review article***
***Geliş tarihi |Received:08.10.2024***
***Kabul tarihi |Accepted:10.12.2024***
***Yayın tarihi |Published:25.12.2024***

**Xuraman Ağayeva**

***https://orcid.org/0009-0009-4276-8783***
*Doctor of philosophy with pedagogy, Associate Professor, Baku State University, Faculty of Information and Document Management, Department of Document Management, Azerbaijan, khuramanagayeva@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Ağayeva, X. (2024). Azərbaycan Respublikası Milli Arxiv İdarəsində Rəqəmsal Texnologiyaların Tətbiqi və İnnovasiyalar. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (6), 4635-4642.

# Azərbaycan Respublikası Milli Arxiv İdarəsində Rəqəmsal Texnologiyaların Tətbiqi və İnnovasiyalar

***Xülasə***

*Arxivşünaslıq arxiv işinin tarixini, nəzəriyyəsini, metodologiyasını, təşkilini, metodikasını işləyib hazırlayan fəaliyyət sahələrindən biridir, mənbəşünaslıq, tarix, sosiologiya, hüquq, ədəbiyyat, incəsənət, informatika və digər başqa elmlərlə qarşılıqlı əlaqədə inkişaf edir. Arxiv işinin menecmenti arxiv işinin idarə olunmasının həm ənənəvi, həm də elektron üsul və vasitələrlə həyata keçirilməsini təmin edir. Bu məqalədə Azərbaycan Respublikasının Milli Arxiv idarəsində rəqəmsal texnologiyaların tətbiqi, istidəçilərin informasiya təminatında və sənədlərin əlçatan olmasında onun əhəmiyyət araşdırılır. "Arxiv işlərinin rəqəmsallaşdirilmasi və innovasiyalar" şöbəsinin fəaliyyətinin monitorinqi aparılır və idarədə həyata keçirilən elektron informasiya xidmətlərinin formaları və əhəmiyyəti tədqiqata cəlb olunur. Milli arxiv idarəsinin saytına və hesabatlarına əsasən idarədə elektron xidmətlərin istifadəçilərin informasiya təminatına təsiri öyrənilir, nəticələr təhlil olunur, bir sıra təkliflər və tövsiyələr verilir.*

***Açar sözlər:*** *arxiv idarəsi, rəqəmsallaşdırma, innovasiyalar, monitorinq, elektron xidmət, informasiya*

BY NC
Creative Commons Licence

# Implementation of Digital Technologies and Innovations in the Department of National Archives of the Republic of Azerbaijan

***Abstract***

*Archiving is one of the fields of activity that develops the history, theory, methodology, organisation, methodology, source studies, history, sociology, law, and interacts with literature, art, informatics and other sciences. The management of archival work provides for the management of archival work by both traditional and electronic methods and tools. The tasks of archival offices include the systematic recording, archiving, preservation, conservation, storage and regulation of public use of historical documents, manuscripts and sources received from various author organisations. The documents in archive offices enable the examination of the history, science, culture, art, in short, the entire historical past of the country based on facts, ancient and modern historical sources and play an important role in providing information for scientific research. This article examines the application of digital technologies in the National Archives of the Republic of Azerbaijan, their importance in providing information to users and making documents accessible. The activities of the Department 'Digitalisation of archival work and innovations' are followed, and the forms and importance of electronic information services implemented in the Department are included in the study. Based on the website and reports of the National Archives Office, the Ministry investigates the impact of electronic services on users' provision of information, analyses the results and makes a series of recommendations and suggestions.*

**Keywords:** *Archive Management, Digitalisation, İnnovations, Monitoring, Electronic Services, İnformation*

## Giriş

Arxiv idarələri ölkənin tarixini, mədəniyyətini, incəsənətini sənədlər vasitəsilə nəsildən-nəslə daşıyan müəssisələrdir. Hər bir ölkənin ərazisində mövcud olan arxivlər tarixi sənədləri, əlyazmaları müxtəlif təşkilatlardan daxil olan mənbələri sistemli şəkildə qeydiyyata almaq, arxivləşdirmək, qorumaq, saxlamaq, ondan ictimai istifadəni təşkil etmək və gələcək nəsillərə çatdırmaq məqsədilə yaradılan dövlət müəssisələridir. Arxivlər hər bir ölkənin tarixini, elmini, mədəniyyətini, incəsənətini, bir sözlə bütün tarixi keçmişini necə varsa, faktlara, qədim və müasir tarixi mənbələrə əsasən öyənməyə imkan verir. Arxivlər eyni zamanda onlarda mövcud olan sənədlər əsasında müxtəlif elmi-tədqiqatlar aparır və onun nəticələrini ictimaiyyətə çatdırır (Ağayeva, 2023). Rəqəmsal texnologiyanın surətlə inkişaf etdiyi müasir dövrdə arxivşünaslıq elminin informatika ilə əlaqələrinin dərinləşdiyini söyləmək olar. Artıq arxivlərdə mövcud olan informasiya analitik-sintetik qayda işləndikdən sonra ənənəvi və avtomatlaşdırılmış qaydada istifadəçilərə çatdırıla bilir (Ağayeva, 2021). Azərbaycan respublikasında milli arxiv işinin yaranması

Cumhuriyyət dövrünə təsadüf edir və həmin dövrdə Azərbaycanda arxiv işinin təşkilində, arxivşünaslıq və arxeoqrafiya elminin təşəkkül tapmasında, xalqın milli sərvəti olan çoxəsrlik sənəd irsinin qorunması və daha qiymətli sənədlərlə zənginləşdirilməsi sahəsində bir çox şəxsin əvəzsiz xidmətləri olmuşdur. Azərbaycan xalqı özünün milli-mənəvi sərvəti olan arxiv sənədlərinə yalnız 1990-cı illərdə Respublikamız öz müstəqilliyini tam bərpa etdikdən, xüsusən Ulu öndərin ikinci dəfə hakimiyyətə gəlişindən sonra sahib olmuşdur. Azərbaycan Respublikasında arxiv işinin müasir tələblər baxımından inkişafı Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfü deyil Milli Arxiv İdarəsinin saytında Ulu öndərin "Arxiv işinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, bu, xalqımızın tarixini əks etdirən yeganə mənbədir. İkinci də ona görə ki, tariximizi təhrif edənlər üçün çox mühüm amildir"sözləri epiqraf kimi götürülmüşdür (Ağayeva, 2023). Ulu öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrə olduğu kimi Azərbaycan Respublikasında arxiv işinin inkişafına da ciddi fikir verdi. XX əsrin 90-cı illərindən başlayaraq Ulu öndərin tapşırığı ilə Azərbaycanda arxiv sənədlərinin toplanılması, saxlanılması, komplektləşdirilməsi və ondan ictimai istifadənin təşkili sahəsində qanunvericilik bazasının hazırlanması sahəsində mühüm işlər görülməyə başladı (İsmayilov, 2022). Ulu öndər Heydər Əliyev tərəfindən 27 iyul 1999-cu ildə təsdiqlənmiş "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanunu respublikamızda arxiv işinin tənzimlənməsi sahəsində hüquqi nomativ bazanın əsasını qoydu. Ulu öndər tərəfindən 2 dekabr 2002-ci il tarixində imzalanmış "Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında" Fərman arxiv işinin təşkilində və arxiv işilə məşgul olan təşkilatların fəaliyyətlərinin yenidən qurulmasında mühüm rol oynadı. Həmin fərmandan sonra Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Baş Arxiv idarəsinin bazasında Azərbaycan Respublikası Milli Arxiv İdarəsi yaradıldı və 2003-cü il, 27 sentyabr tarixində "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi haqqında Əsasnamə" təsdiq olundu (Ağayeva, 2023). Azərbaycan Respublikası dövlət arxiv xidməti sisteminə Milli arxiv idarəsinin tabeliyində olan 6 dövlət arxivi, dövlət arxivinin 15 filialı, Naxçıvan Muxtar Respublikasının Dövlət arxivi, 58 rayon və şəhər dövlət arxivi və bir təsərrüfat hesablı İdarə Sənədlərini Qaydaya Salan Mərkəz daxildir (Milli arşiv, 2024). Arxivdə mövcud olan informasiyaların, sənədlərin avtomatlaşdırılmış qaydada ötürülməsinə, rəqəmsallaşdırılmasına və ya arxivdə informasiya xidmətinə gəldikdə isə belə xidmət növünin yaradılmasına XX əsrin sonlarından başlanılsa da, demək olar ki, hələ ilkin

mərhələdədir. Azərbaycan ərazisində mövcud olan bütün arxivlərin saytı və ya səhifəsi vardır, respublikamızda mövcud olan bütün arxivlərdə elektron xidmətin göstərilməsi həyata keçirilir. https:www/milliarxiv.gov.az Milli Arxiv idarəsinin səhifəsidir. info@milliarxiv.qov. e-unvanıdır. Milli Arxiv İdarəsində yeni informasiya texnologiyalarının tətbiqi, vahid elektron arxiv informasiya sisteminin yaradılması, arxiv fondunda mövcud olan sənədlərin rəqəmsallaşdırılması, dövlət arxivlərində görülən işlərin avtomatlaşdırılması, maddi-texniki təchizatın gücləndirilməsi, arxiv işi üzrə nörmativ hüquqi bazanın yaradılması istiqamətində mühüm işlər görülür. Artıq idarə və dövlət arxivlərində kargüzarlıq işləri elektron sənəd dövriyyəsi sistemi üzərındən aparılır.

Milli Arxiv idarəsində Elmi Məlumat kitabxanası fəaliyyət göstərir. Kitabxanada elmi tədqiqatçılar və digər istifadəçilər üçün xüsusi şərait yaradılmış və fondu hər il zənginləşdirilir. 2023-cü ilin sənədləri üzrə monitorinq aparsaq həmin il 150 kitab, 77 cild qəzet, 60 adda jurnal alınmışdır. Ümumilikdə Elmi Məlumat kitabxanasının fondunda 2024-cü ilin 1 yanvara olan məlumata görə 43355 kitab, 10833 qəzet, 21260 jurnal saxlanılır (Milli arşiv, 2024). Milli arxiv fondu sənədlərinin qorunması və ondan ictimai istifadənin təşkili məqsədilə Arxiv İdarəsində Vahid Elektron Arxiv İnformasiya Sistemi yaradılmış və bu sistemin tam işləməsi üçün tədbirlər həyata keçirilir. Milli Arxiv İdarəsi aparatı da daxil olmaqla əvvəlcədən Elekton Sənəd dövriyyəsi sisteminə qoşulmuş dövlət arxivləri də daxil olmaqla Bakı şəhərində mövcud olan "Asan xidmət" Mərkəzlərinin "Arxiv arayışlarının verilməsi" bölmələrinin Milli Arxiv İdarəsinin Vahid Elektron Sənəd Dövriyyəsi sisteminə qoşulması təmin edilmişdir. Milli Arxiv İdarəsi tərəfindən göstərilən elektron arxiv xidmətlərinin səviyyəsi və keyfiyyəti yaxşılaşdırılır, elektron hökumət üzərindən həyata keçirilən xidmətlərin səviyyəsi yüksədilir və digər informasiya sistemləri üzərində də təkmillədirilmə işləri aparılır.

Milli Arxiv İdarəsinin həyata keçirdiyi dövlət arxiv xidmətləri üzrə keyfiyyətin yüksəldilməsi və "Asan xidmət" indeksinə uyğun xidmət göstərilməsi məqsədilə yaradılmış "Bir pəncərə" sistemi və "Asan xidmət" mərkəzlərində həyata keçirilməsi təmin edilmişdir. Milli Arxiv İdarəsinin 2023-cü ilin nəticələrinə baxsaq "Asan Xidmət" mərkəzlərindən arxiv xidməti idarələrinə 17.464 sorğu daxil olmuş və bu sorğular operativ cavablandırılmışdır (İsmayilov & Khalafova, 2022). Milli Arxiv İdarəsinin rəsmi İnternet saytının daimi olaraq yeni materiallarla zənginləşdirilməsinə və sosial şəbəkələrdə olan hesabların aktivliyinə diqqət yetirilir və sosial şəbəkə istifadəçilərinin sayı 7 min nəfərə çatmışdır. Hər gün İdarənin saytına gündəlik baxış sayı 450-500, il ərzində isə 50 min nəfər təşkil edir (Milli arşiv, 2024). İdarənin rəsmi saytı vasitəsilə elektron xidmətlər təqdim edilir, respublikada arxiv işi ilə bağlı keçirilən tədbirlər təqdim olunur,

arxiv sənədləri əsasında hazırlanmış kitabların, məqalələrin, göstəricilərin təqdimatı həyata keçirilir. Milli Arxiv İdarəsində Milli arxiv fonduna daxil olan sənədlərin rəqəmsallaşdırlması və sahə üzrə innovativ yeniliklərin tətbiqi istiqamətində mühüm işlər həyata keçirilir və bu məqsədlə idarədə "Arxiv işinin rəqəmsallaşdırılması və innovasiyalar" şöbəsi də yaradılmışdır. Dövlət arxivlərində saxlanılan müxtəlif sənədlərin rəqəmsallaşdırılmasına differensial yanaşılır və bu məqsədlə hər bir dövlət arxivi üzrə illik iş planı da tərtib edilmişdir (Gasimli, 2022). Milli Arxiv idarəsinin illik hesabatlarına əsasən deyə bilərik ki, 2024-cü ilin 1 yanvar tarixinə kimi dövlət arxivlərində mühafizə olunan 27.297 saxlama vahidi (3.890.376 vərəq) sənədin elektron nüsxəsi hazırlanmışdır və onlardan 14.908 saxlama vahidi sənəd sistemdə qeydiyyata alınmışdır (Milli arşiv, 2024). Milli Arxiv İdarəsi saytının monitorinqini aparsaq görərik ki, sayt "Haqqımızda", "Qanunvericilik", "Milli arxiv fondu", "E-xidmətlər", "Məktub yaz" kimi panellərdən ibarətdir. Tədqiqatımıza uyğun olaraq saytın "E-xidmətlər" panelini araşdırsaq görərik ki, bu paneldə "Elektron xidmətlər portalı", "Elektron arxiv sistemi-EAS","Elektron arxiv məlumat sistemi-EAMS", "Elektron hesabatlar sisitemi-EHS" portalları yaradılmışdır. "Elektron xidmətlər portalının (müraciətlər üzrə)" yaradılmasında əsas məqsəd Azərbaycan respublikasının vətəndaşlarına, hüquqi və fiziki şəxslərə tələbata uyğun olaraq arxiv arayışlarının, arxiv sənədlərindən çıxarışların, mümkün olduqca arxiv sənədlərinin surətlərinin verilməsi, elmi-tədqiqat və digər məqsədlərlə müraciətlərin cavablandırılmasını, sənədlərin qəbulunu, elektron xidmətlər göstərilməsini nəzərdə tutur. Bu portalda "Xidmətin inzibati reqlamenti" və "Xidmətin istifadə təlimatı" yer alır. Saytın "Elektron arxiv sistemi-EAS" portalının yaradılmasında əsas məqsəd Milli arxiv idarəsində mövcud olan sənədlərin elektron qaydada istifadəçilərə daha tez və operativ çatdırılmasıdır."Elektron Arxiv məlumat sistemi-EAMS" portalinin əsas məqsədi Azərbaycan Respublikası Milli arxiv fondunun məzmunu və tərkibi haqqında məlumatların veril-məsidir. Bu portal vasitəsilə Azərbaycan Respublikasının vətəndaşlarına, hüquqi və fiziki şəxslərə Azərbaycan Pespublikası Milli Arxiv idarəsinin "Elektron Arxiv məlumat sistemi", Dövlət İnfor-masiya Ehtiyatlarından istifadə etməklə Azərbaycan Pespublikası Milli arxiv fondunun tərkibi və məzmunu haqqında məlumatın verilməsini təmin etməkdən ibarətdir.

"Elektron hesabatlar sistemi-EHS" panelinin və ya xidmət növünün yaradılmasında əsas məqsəd Azərbaycan Respublikası Milli arxiv idarəsinin strukturuna daxil olmayan, tabeliyindəki qurumlar tərəfindən arxiv sənədlərinin qeydiyyata alınması, uçotu, komplektləşdirilməsi,

elektronlaşdırılması, ictimai istifadənin təşkili, elektron informasiya xidmətlərinin göstərilməsi, arxiv binalarının maddi texniki bazası, vəziyyəti, arxivlərlə bağlı sahələr haqqında rəsmi statistik məlumatların elektron şəkildə idarəyə çatdırılması, informasiyanın elektron emalı, inzibati və ilkin statistik məlumatların dəqiqləşdirilməsi və ümumiləşdirilməsi nəticəsində hesabatların hazırlanması və yuxarı təşkilatlara, eyni zamanda ictimaiyyətə çatdırlmasıdır.

Portaldan necə istifadə etmək olar? Bu məsələni araşdırsaq görərik ki, portalda "Təlimatlar və istifadə qaydaları" adlı pdf yerləşdirilmişdir. Ona əsasən deyə bilərik ki, Milli Arxiv idarəsinin E-xidmətlər portalından istifadə etmək üçün ilk növbədə müvafiq Reqlamentlərlə tanış olmalı, aidiyyati üzrə sənədlərin surəti skan edilərək hazılamalıdır. Bundan sonra Milli Arxiv İdarəsinin rəsmi internet saytında (Milli arşiv, 2024) yerləşdirilən "Elektron xidmətlər" banerini tıklayaraq portala daxil olmaq olar. Bundan əlavə "Elektron hökumət portalı"na daxil olmaqla idarənin təqdim etdiyi e-xidmətlərdən istifadə etmək olar.

**Nəticə**

Nəticə olaraq qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Milli Arxiv İdarəsi arxiv işi sahəsində dövlət siyasətinin formalaşmasında yaxından iştirak edir və onun həyata keçirilməsini təmin edir, milli arxiv fonduna daxil olan, tarixi, elmi, sosial, iqtisadi, siyasi, mədəni, ədəbi-bədii əhəmiyyət kəsb edən, Azərbaycan Respublikasından kənarda yerləşən və Azərbaycana aid tarixi, mədəni irslə bağlı arxiv sənədlərinin qəbulunu, mühafizə və istifadəsini təmin edir, Milli arxiv fonduna daxil olan sənədlərin komplektləşdirilməsi, uçotu və mühafizəsi, ictimai istifadəsi, idarəyə tabe olan dövlət arxivlərinin və filiallarının işlərini əlaqələndirir və onların fəaliyyətini təşkil edir, respublikada arxiv işinin inkişafını və bu sahədə yeni texnologiyaların tətbiqini təmin edir, dövlət arxivlərinə və qeyri dövlət arxivlərinə metodiki kömək göstərir, dövlət orqanlarında arxiv işinin təşkilini əlaqələndirir, arxiv işinin vəziyyətini mütamadi olaraq təhlil edir, yuxarı təşkilatlar qarşısında hesabat verir, arxiv işinin inkişaf konsepsiyasını və strategiyasını hazırlayır. Sahənin inkişafı ilə bağlı bir sıra təklif və tövsiyələr vermək olar:

*Arxivlərin fəaliyyətini optimallaşdırmaq üçün ilk növbədə kadr siyasətinə diqqət yetirilməli, peşəkar, baza təhsili olan kadrları işə cəlb etmək lazımdır.

*Azərbaycan Dövlət arxivlərindən operativ istifadəni təşkil etmək üçün elektron xidmətlərdən istifadəni ön plana çəkmək lazımdır (Khalafova & İsmayilov, 2024).

*İstifadəçiləri informasiya axtarışına cəlb etmək onun informasiya mədəniyyətini formalaşdıra, istifadəçiləri dinləmək və onların ehtiyaclarına uyğun cavab vermək onların akademik inkişafına töhfə verə bilər (İsmayilov, Mahammadli & Gasimli, 2023).

*Tələbələrə və elmi tədqiqatçılara operativ ənənəvi və elektron xidmət göstərmək elmi-tədqiqatla bağlı problemləri aradan qaldırmağa yardım edə bilər (İsmayilov & Khudiyeva, 2022).

* Elmi-tədqiqatçılara daha səmərəli xidmət göstərmək üçün arxivlər sadəlik və ardıcıllıq, əlçatanlıq və fərdi xidmət kimi məsələləri ön plana çəkməlidirlər.

*İstifadəçilərin öyrənmə üslubları və məlumat axtarışı üsulları dəyişdikcə xidmət modelləri dəyişməlidir.

*Arxiv sənədlərini əks etdirən həm ənənəvi, həm də elektron məlumat vasitələrinin hazırlanmasına diqqəti artırmaq lazımdır.

*"Asan xidmət"lərlə qarşılıqlı əməkdaşlıq informasiyanın ötürülməsini və qəbulunu sürətləndirdiyinə görə bu sahənin reklamını artırmaq lazımdır.

*Gizli olmayan informasiyaların və ya sənədlərin rəqəmsallaşdırılması bu sahədə informasiyaya daha sürətlə əlçatan olmasını təmin edə bilər.

Azərbaycanın arxiv təşkilatları Cənubi Qafqazda yaradılan ilk dövlət arxiv qurumları olaraq yüz illik inkişaf yolu keçmiş, bu müddətdə öz xalqına və dövlətinə şərəflə xidmət etmişdir. Tarixin müxtəlif mərhələlərindən üzüağ çıxan arxivlər xalqımızın başına gələn müxtəlif hadisələri, onun diplomatiya tarixini, milli təhlükəsizlik və beynəlxalq əməkdaşlıq məsələlərini, sosial-iqtisadi, mədəni-tarixi nailiyyətlərini, elmi tərəqqisini özündə əks etdirən 300 illik tarixi dövrü əhatə edən sənədlər kompleksini bu günə kimi şərəflə qorumuş, ölkəmizdə tarix, arxiv işi, arxivşünaslıq, sənədşünaslıq, o cümlədən digər humanitar sahələr üzrə elmi tədqiqatların aparılması üçün zəngin mənbəşünaslıq bazasını yaratmışdır. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi respublikada mövcud olan bütün arxivlərin metodiki mərkəzi olduğuna görə dövlət arxivlərində elektronlaşdırma, yeni texnologiyaların tətbiqi, elektron xidmət işinin təşkilinə birbaşa cavabdehdir. Ümid edirik ki, arxivlərdə sənədlərin rəqəmsallaşdırılması və innovasiyaların tətbiqi daha da sürətlənəcəkdir.

## Ədəbiyyat

Agayeva, X. T. (2023) Akademik kitabxanaların elmi-tədqiqat mərkəzlərinə konsaltinq xidmətinin əsas istiqamətləri.*Kitabxanaşünaslıq və biblioqrafiya:elmi nəzəri və təcrübi jurnal*, 31-38.

Ağayeva, X. T. (2023). Akademik kitabxanalarda konsaltinq xidmətləri (2023).*Qarabağ Kitabxanaları: tarixi, müasir durumu və gələcəyi Ümummilli lider H. Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş Respublika konfransının materialları*, 46-48.

Ağayeva X. T. (2021). Kitabxana inforomasiya müəssisələrində innovativ xidmət üsulları.*The XVI İnternational Scientifik Symposium ”World Science:problems and innovateons ” dedicated to the 115 th anniversary of Mahammadhuseyn Shahriyar wos held in East Lansinq,* Michigan, 237-242

Gasimli, H. H. (2022). Researching of the document flow related to tourism in libraries (Based on local and foreign library experience. *İnternational Paris Conference on Social Science* –VII, – France, 06-07 iyul, 113-117.

Ismayilov, N. I. & Gasimli, H. (2022). The main activities of the Republic's Tourism Information Centers. *GRANI Journal, 25* (6), 16-22.

Ismayilov, N. I. & Khalafova, S. A. (2023). On the typology of document-information resources in the field of economy. *Universidad Y Sociedad, 15* (6), 224-232.

Ismayilov, N. I. & Bayramova, İ. (2022). Methodology of Research and Study of Document Flow in the Field of Tourism (Based on Experience from Local Libraries). *GRANI Journal, 25* (3), 70-76.

Ismayilov, N. I. & Khudiyeva, V. (2022). Assessment of digital knowledge and research skills and overview of on going work at the national level, forecasting. Concepts of digitization. *Technium Social Sciences*, 35, 593-600.

Ismayilov, N. I. (2022). Library Resources: Allocation and Usage Problems (Comparative Analysis of the World and Regional Practice). *Scientific and Theoretical Almanac Grani, 1* (26), 38-43.

Ismayilov, N. I. Khalafova, S. A. (2022). General Characteristics of Local Lore Documental Network Resources of the Libraries of Azerbaijan (Based on library collection). *Technium Social Sciences Journal, 33* (1), 628-637.

Ismayilov, N.I. Mahammadli, D. & Khudiyeva, V. (2022). Methods and Means of Information Search in the Digital Environment. *GRANI Journal, 25* (5), 31-34.

İsmayılov, N. İ., Mahammadli, D. & Gasimli, H. H. (2023). Organization, development and current situation of the document flow on tourism in the regions (based on the example of the Shaki-Zagatala economic region). *Scientific and Theoretical Almanac Grani, 2* (26), 122-127.

Khalafova, S. & İsmayılov, N. (2024). Information provision of tourism and economy in Azerbaijan and its bibliometric analysis.*Geojournal of Tourism and Geosites.Indexing in Scopus.Cite Score,* 3 (9), 4.-31.

Milli arşiv, 2024, http://milliarxiv.gov.az/az